

# Şabranda keçirilən bilik yarışmasının iştirakçıları müəllimlər olublar

**"Çıraqqala-Şabran" Dövlət Tarix-Mədəniyyət Qoruğunun, Şabran Bələdiyyəsinin və Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqı Şabran rayon komitəsinin birgə təşkilatçılığı ilə Şabran rayon Mədəniyyət Sarayında "Unudulmayan Mədəni İrsimiz və Qorunan Gələcəyimiz" adlı bilik yarışı təşkil olunub.**

Şabran şəhərinin ümumtəhsil məktəblərinin müəllimləri arasında keçirilən və yüksək marağa səbəb olan tədbirin məqsədi Azərbaycanın Zəfər tarixini, Vətən müharibəsində qazanılan qəhrəmanlıq ənənələrini, mədəni irsimizin qorunması və gələcək nəsillərə ötürülməsi ideyasını müəllimlər arasında təbliğ etmək, həmrəylik və bilik mübarizəsi mühitini formalaşdırmaq idi.

Tədbirin açılış mərasimində çıxış edən "Çıraqqala-Şabran" Dövlət Tarix-Mədəniyyət Qoruğunun direktoru Günel Pirquliyeva qeyd edib ki, Zəfər Günü xalqımızın milli birlik, qəhrəmanlıq və mübarizə ruhunun simvoludur: "Tariximizin qızıl səhifəsi olan 44 günlük müharibə 30 ilə yaxın işğal altında olan torpaqlarımızın azad edilməsi ilə nəticələndi. Bu cür bilik yarışlarının gənc nəslin və müəllimlərin vətənpərvərlik ruhunda tərbiyəsində mühüm rol oynayacaq".

Şabran Bələdiyyəsinin sədri Fidan Fərzəliyeva və Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqı Şabran rayon komitəsinin sədri Seymur Qədəşov tədbirin əhəmiyyətindən, Azərbaycan xalqının böyük Zəfərinin hər bir vətəndaşın yaddaşında əbədi yaşayacağından söz açıblar.

Bilik yarışında Şabran şəhərinin 5 ümumtəhsil məktəbini təmsil edən müəllim komandaları iştirak ediblər. Komandalar Azərbaycan tarixi, mədəniyyəti, Zəfər Günü və Qarabağ mövzuları üzrə hazırlanan suallara cavab verərək bilik və məntiq bacarıqlarını nümayiş etdiriblər. Yarış boyunca iştirakçılar həm məlumatlılıq, həm çeviklik, həm də komandada işləmək bacarığı ilə fərqləniblər.

Müxtəlif qurumları təmsil edən münsiflər heyəti komandaların cavablarını obyektiv şəkildə qiymətləndirib və hər mərhələdə bilik, dəqiqlik və kreativ yanaşma meyarlarını əsas götürüb.

Yarışın fasiləsində müəllimlər və qonaqlar üçün vətənpərvərlik ruhunda musiqilər ifa olunub və "Qarabağ", "Vətən marşı", "Cənab leytenant" və digər vətənpərvərlik ruhunda mahnılar ifa edilib.

Gərgin və həyəcanlı anlarla yadda qalan yarışın nəticələrinə əsasən, Məmmədağa Nəzirov adına 4 nömrəli tam orta məktəb 1-ci, Tofiq Abbasov adına 1 nömrəli və Samir Zülfüqarov adına 3 nömrəli tam orta məktəblər isə müvafiq olaraq 2-ci və 3-cü yerləri bölüşüblər. Qalib komandalar fəxri fərman və xüsusi hədiyyələrlə təltif olunublar.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 13 noyabr (№241).- S. 15.